**UDC:** 31.
**LBC:** 60.52.; 60.54
**MJ №** 335
10.33864/2617-751X.2025.v8.i6.90-105

# THEORETICAL ISSUES OF THE CLASSIFICATION OF MILITARY CONFLICTS

**Zafar Najafov***

**Abstract.** The article is devoted to the issues of classification of military conflicts. First, the term military conflict and its types: war and armed conflicts are clarified. Then, a classification of military conflicts is carried out according to various criteria: the purpose of the conflict, theater, scale, forces and means involved, conflict spectrum, etc. The priority in the classification is given to typology, since the problem of systematics and taxonomy of conflicts remains undeveloped. Typology classifies conflicts according to their main characteristics. In modern times, the leadership in this direction undoubtedly belongs to Western, especially US researchers. This is explained by the fact that after the Cold War, the US Armed Forces used more military force in various hot regions of the world. Typology cannot be considered a completely stable type of classification. There are many controversial points. As an example, it is enough to note the differences in the views of Western and Russian researchers on the classification of war generations. In general, it is difficult to say that a perfect classification system will be created until the systematics and taxonomy of military conflicts are developed.

**Keywords:** military conflict, classification, typology, systematics, taxonomy

* PhD in National Security and Military Sciences,
Institute of Military Management; Baku, Azerbaijan
E-mail: zafarnajafov@yahoo.com
https://orcid.org/0000-0002-1392-9359

**To cite this article:** Najafov, Z. [2025]. THEORETICAL ISSUES OF THE CLASSIFICATION OF MILITARY CONFLICTS. *“Metafizika” journal, 8*(6), pp.90-105.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.90-105

***Article history:***
*Received: 30.12.2024*
*Accepted: 02.06.2025*
*Published: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 31.
**ББК:** 60.52.; 60.54
**MJ №** 335
10.33864/2617-751X.2025.v8.i6.90-105

# ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ КЛАССИФИКАЦИИ ВОЕННЫХ КОНФЛИКТОВ

**Зафар Наджафов***

**Абстракт.** Статья посвящена классификации военных конфликтов. Во-первых, разъясняется термин «военный конфликт» и его виды- война и вооруженные конфликты. Затем рассматриваются различные критерии: цель конфликта, театр военных действий, масштаб, задействованные силы и средства, спектр конфликта и т. д. В соответствии с этим была проведена классификация военных конфликтов. Приоритет в классификации отдан типологии, поскольку проблема систематики и таксономии конфликтов остается неизученной. Типология классифицирует конфликты по их важным характеристикам. В настоящее время лидерство в этом направлении, несомненно, принадлежит западным, особенно американским исследователям. Это объясняется тем, что после окончания Холодной войны Вооруженные силы США стали активнее использовать военную силу в различных горячих точках по всему миру. Невозможно также принять типологию как совершенно фиксированный тип классификации. Есть много спорных моментов. В качестве примера достаточно отметить различия во взглядах западных и российских исследователей на классификацию военных поколений. В целом трудно сказать, что идеальная система классификации будет создана до тех пор, пока не будут разработаны систематика и таксономия военных конфликтов.

**Ключевые слова:** военный конфликт, классификация, типология, систематика, таксономия

* Доктор философии в области национальной безопасности и военных наук,
Институт Военного Управления; Баку, Азербайджан
E-mail: zafarnajafov@yahoo.com
https://orcid.org/0000-0002-1392-9359

**Цитировать статью:** Наджафов, З. [2025]. ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ КЛАССИФИКАЦИИ ВОЕННЫХ КОНФЛИКТОВ. *Журнал «Metafizika», 8*(6), с.90-105.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.90-105

***История статьи:***
***Статья поступила в редакцию:*** *30.12.2024*
***Отправлена на доработку:*** *03.02.2025*
***Принята для печати:*** *04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 31.
**KBT:** 60.52.; 60.54
**MJ №** 335
10.33864/2617-751X.2025.v8.i6.90-105

# HƏRBİ MÜNAQİŞƏLƏRİN TƏSNİFATININ NƏZƏRİ MƏSƏLƏLƏRİ

**Zəfər Nəcəfov***

**Abstrakt.** Məqalə hərbi münaqişələrin təsnifat məsələlərinə həsr edilib. İlk öncə hərbi münaqişə terminınə və onun növləri olan müharibə və silahlı münaqişələrə aydınlıq gətirilib. Bundan sonra müxtəlif meyarlara: münaqişənin məqsədi, teatrı, miqyası, cəlb olunmuş qüvvə və vasitələr, münaqişə spektri və s. görə hərbi münaqişələrin təsnifatı həyata keçirilib. Təsnifatda üstünlük tipologiyaya verilib, çünki münaqişələrin sistematikası və taksonomiyası problemi hələ də işlənilməmiş qalır. Tipologiya münaqişələrin mühüm əlamətlərinə görə təsnifini həyata keçirir. Müasir dövrdə bu istiqamətdə liderlik heç şübhəsiz Qərb, xüsusən də ABŞ tədqiqatçılarına məxsusdur. Bu onunla izah edilir ki, soyuq müharibədən sonra ABŞ Silahlı Qüvvələri dünyanın müxtəlif qaynar regionlarında daha çox hərbi gücdən istifadə ediblər. Tipologiyanı da tam sabit təsnifat növü kimi qəbul etmək mümkün deyil. Mübahisəli məqamlar çoxdur. Misal qismində, müharibə nəsillərinin təsnifatında Qərb və rusiyalı tədqiqatçıların baxışlarında fərqləri qeyd etmək kifayətdir. Ümumiyyətlə, hərbi münaqişələrin sistematikası və taksonomiyası işlənilməyincə, mükəmməl təsnifat sisteminin yaranacağını söyləmək çətindir.

**Açar sözlər:** hərbi münaqişə, təsnifat, tipologiya, sistematika, taksonomiya

* Milli təhlükəsizlk və hərbi elmlər üzrə fəlsəfə doktoru,
Hərbi İdarəetmə İnstitutu; Bakı, Azərbaycan
E-mail: zafarnajafov@yahoo.com
https://orcid.org/0000-0002-1392-9359

**Məqaləyə istinad:** Nəcəfov, Z. [2025] HƏRBİ MÜNAQİŞƏLƏRİN TƏSNİFATININ NƏZƏRİ MƏSƏLƏLƏRİ. *“Metafizika” jurnalı, 8*(6), səh.90-105.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.90-105

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 30.12.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 03.02.2025*
*Çapa qəbul edilmişdir: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# 1.Giriş

Hər bir elmin mühüm vəzifəsi onun tədqiqat obyekti olan hadisələrin məcmusu haqqında bilikləri ümumiləşdirməkdən və sistemləşdirməkdən ibarətdir. Təsnifatların etibarlı, əhatəli və rasional olması elmin inkişaf dərəcəsinin meyarlarından biri ola bilər. Münaqişələrin təsnifatı probleminin inkişafı konfliktologiyada sistem yanaşmasının zəruri elementidir.

Təsnifat- tədqiq olunan bütün çoxsaylı obyektləri ayrı-ayrı hissələrə parçalayan və sonra onları hansısa xarakteristikaya əsasən qruplarda birləşdirən elmi metoddur. Obyektin müəyyən qrupa təsnif edilməsi üçün meyar rolunu oynayan əlamət, mövcudluq və ya ifadə dərəcəsi təsnifatın əsasını təşkil edir. Münaqişələrin təsnifatı onların əsas xüsusiyyətlərinin, əlaqələrinin, funksiyalarının, münasibətlərinin, təşkili səviyyələrinin və s.-nin müqayisəli tədqiqi üçün zəruridir.

Təsnifat təkcə elmin obyektini xarakterizə edən anlayışların sistemləşdirilməsi deyil. Bu, elmin obyekti haqqında yeni biliklərin əldə edilməsi, konfliktologiyanın anlayış-kateqoriya aparatının genişləndirilməsi, onu münaqişənin inkişafının obyektiv qanunlarına daha yaxşı uyğunlaşdırmaqdır.

Təsnifat özü vahid bir sistemi xatırladır. Onun əsas elementləri tipologiya, sistematika və taksonomiya hesab edilir. Həmin elementlər biri biri ilə qarşılıqlı təsirdə hesab edilir. Bu elementlərdən birinin fəaliyyətsizliyi (tədqiq edilməməsi) sistemin tam gücü ilə işləməsinə imkan vermir. Müasir konfliktologiya elmində təsnifat sistemi əsasən tipologiya üzərində dayandığından onu hələ ki, hərtərəfli funksional sistem kimi qəbul etmək mümkün deyil. Lakin etiraf etmək lazımdır ki, konfliktologiya istər sistematika, istərsə də taksonomiya baxımından kifayət qədər tədqiqat bazasına malikdir. Yaxın gələcəkdə bu problemlərin həllinə nail olunacağına ümidlər böyükdür. Məqalədə sistemli, struktur və müqayisəli təhlil metodlarından istifadə edilib.

Təsnifatın əsas vəzifəsi bütün münaqişələrin obyektiv olaraq mövcud olan sistem xüsusiyyətlərini müəyyən etməkdir.Təsnifat üçün mühüm olaraq münaqişələrin əsas əlamətləri seçilərsə, o zaman təsnifat təbii adlandırılacaqdır. Belə təsnifatlar idraki əhəmiyyətə malikdir. Bu cür təsnifata misal olaraq münaqişələri onların yaranmasının əsasında duran ziddiyyətlərin növündən; münaqişə tərəflərinin xüsusiyyətlərindən; münaqişə nəticəsində dəymiş zərərin xarakteri və həcmindən asılı olaraq qruplaşdırılmasını göstərmək olar.

Tədqiqat məqsədləri üçün sadəcə olaraq münaqişələri sistemləşdirmək lazımdırsa, bunun üçün əlverişli xüsusiyyətlər əsas kimi seçilir. Onlar münaqişələrin özlərinə aidiyyatı olmayan ola bilər. Bu halda təsnifat süni xarakter daşıyır.

Müharibələrin, doktrinaların və silahlı qüvvələrdən istifadə formalarının geniş təsnifatının təqdim edilməsində Amerikalı ekspertlər üstün yer tutur ki, bu da dünyanın digər ölkələri ilə müqayisədə XX əsrin sonu - XXI əsrin əvvəllərində ABŞ ordusunun yüksək hərbi fəallığı ilə bağlıdır [1. s.9].

**2.Təsnifatın əsas növləri**

Təsnifatın əsas növləri tipologiya, sistematika və taksonomiyadır [2, s.40].

**2.1.Tipologiya** - münaqişənin mühüm əlamətlərinə əsaslanan təsnifatdır. Bu təsnifatın ən qiymətli və mürəkkəb növüdür. Tipologiyanın nəticəsi olaraq bir sıra konflikt növləri müəyyən edilir. Növün özü seçilmiş təsnifat əsasında münaqişələr toplusunun parçalanma vahidi kimi çıxış edir.

**2.2.Sistematika.** Sistematika konfliktlərin müəyyən məcmusu haqqında təsəvvürləri sistemləşdirməkdən ibarətdir. Bu halda təsnifat üçün əsas konfliktin növü deyil, onun əlamətləri götürülür. Məsələn, biologiyada sistematika bütün mövcud və nəsli kəsilmiş orqanizmlərin müxtəlifliyini, onlar arasındakı əlaqələri və ailə bağlarını öyrənən müstəqil elm sahəsidir. Konfliktologiyada isə münaqişələrin tam sistematikasına yaxın gələcəkdə nail olmaq mümkün deyil. Bununla belə, münaqişələrin tam sistematikasının yaradılması, prinsipcə, mümkündür. Bioloji taksonomiya ilə müqayisədə konflikt sinifləri arasında daha az sərt sərhədlər olacaqdır. Bu, bioloji sistemlərin sərhədlərinin və bu sistemlərin xüsusiyyətlərinin münaqişələrin oxşar xüsusiyyətlərindən daha aydın olması ilə bağlıdır.

**2.3.Taksonomiya.** Bu, "adətən iyerarxik quruluşa malik fəaliyyətlərin təsnifatı və sistemləşdirilməsi nəzəriyyəsidir" [Sovet Ensiklopedik lüğəti, 1987]. Botanika və biologiyada taksonomiya sistematikanın bir bölməsi, tabeli obyekt qruplarını - taksonları təsvir edən taksonomik kateqoriyalar sisteminin öyrənilməsi hesab olunur. Konfliktologiyada hələlik konfliktlərin taksonomik təsnifatları mövcud deyil, baxmayaraq ki, onlar prinsipcə mümkündür. Tabeliyində olan, bir-biri ilə əlaqəli konfliktlərin "klasteri" takson adlanır. Taksonlar müəyyən bir ailə, sosial qrup və ya bölgə daxilində münaqişələr yarada bilər.

Bu gün konfliktologiyada ən çox yayılmış təsnifat tipologiya şəklindədir. Son 50 il ərzində silahlı beynəlxalq münaqişələrin sistematik təsnifatını qurmaq mümkündür. Bu sistematika çərçivəsində, məsələn, keçmiş SSRİ ərazisində bu gün inkişaf edən münaqişələrin taksonomik təsnifatını aparmaq mümkündür.

Münaqişələrin təsnifatında əsas çətinliklər onların mürəkkəbliyi və kifayət qədər öyrənilməməsi ilə bağlıdır. Bütün elmlər içərisində təsnifat problemi botanika və biologiyada ən mükəmməl şəkildə işlənmişdir. Onların təcrübəsindən konfliktologiyada bu mühüm problemi həll etmək üçün faydalı istifadə etmək olar [2, s.41].

Hərbi münaqişələrin tədqiqi ilə bağlı mühüm məsələlərdən biri onları mənşəyindən, xarakterindən, tipologiyasından və nizamlanma üsullarından asılı olaraq təsnif etmək problemidir. Düzgün təsnifat onların sosial prosesdə yerini, rolunu və əhəmiyyətini müəyyən etməyə imkan verir.

Təsnifata keçməzdən əvvəl hərbi münaqişə anlayışına aydınlıq gətirmək son dərəcə vacibdir. Çünki əksər tədqiqatlarda və siyasi təhlillərdə bəzən bu ifadə müharibə və ya silahlı münaqişə anlayışı ilə paralel olaraq işlədilir, lakin bu heç də belə deyil.

Dövlətlərarası və ya dövlətdaxili ziddiyyətlərin hərbi güc tətbiqi ilə həlli forması olan **hərbi münaqişə** müəyyən məqsədlərə nail olmaq üçün müharibə edən tərəflər arasında silahlı zorakılığın tətbiqidir [2, s.40]. Hərbi münaqişələrin əsas tipləri müharibə və silahlı münaqişədir. Bu təsnifatın yaddaqalan cəhətini belə formulə etmək mümkündür: hər münaqişə müharibə deyil, hər müharibə isə münaqişədir.

**3.Müharibə**

Dövlətlər, dövlətlərin koalisiyaları, bir dövlətin əhalisinin sosial qrupları arasında məhdud, mühüm və ya radikal hərbi-siyasi məqsədlərə nail olmaq naminə əsas ziddiyyətlərin intensiv silahlı zorakılıq və digər qarşıdurma növləri ilə müşayiət olunan (siyasi, iqtisadi, informasiya, psixoloji, xüsusi əməliyyat qüvvələri və s.) ən yüksək həll forması kimi başa düşülür [3, s.62].

Müharibə ilk növbədə, obyektiv və subyektiv xarakter daşıyan sosial-siyasi, iqtisadi və ideoloji səbəblərdən yaranır. O, dövlətin ictimai həyatının bütün sahələrinin – sosial, siyasi, iqtisadi və dini sahələrin vəziyyətinin keyfiyyət baxımından dəyişməsinə gətirib çıxarır.

Müasir müharibələrin xarakteri hərbi-siyasi və strateji məqsədlərlə, onlara nailolma vasitələri və hərbi fəaliyyətlərin miqyasları ilə müəyyən olunur. Müharibənin xarakterinə, o cümlədən dövlətin hərbi, hərbi-iqtisadi və mənəvi-psixoloji potensialı, sosial, ekoloji, fiziki-coğrafi şəraiti, hərbi fəaliyyət meydanının avadanlıqlaşdırılması və digər amillər əhəmiyyətli dərəcədə təsir göstərir.

Müasir şəraitdə müharibələrin strateji məzmunu – müharibələrin, ilk növbədə lokal müharibələrin başlanma ehtimalının artmasından, silahlı münaqişələrin və lokal müharibələrin daha irimiqyaslı müharibələrə çevrilməsi və bu müharibələrə müxtəlif dövlətlərin cəlb olunması tendensiyasının saxlanmasından, silahlı mübarizə vasitələrinin inkişafında yüksək dəqiqlikli kəşfiyyat-atəş sistemlərinin (komplekslərinin) üstünlük təşkil etməsindən, keçirilən tədbirlərin aktivliyi və miqyasının hərbi fəaliyyət genişliyindən asılılığının aşağı salınmasından ibarətdir.

Müharibənin tərkibinin əsasını bütün fiziki sahələrdə (yerdə, havada, suda, su altında və kosmosda) keçirilən müxtəlif miqyaslı hərbi fəaliyyətləri özündə

birləşdirən silahlı mübarizə təşkil edir. Müharibənin gedişində silahlı qarşıdurma ilə yanaşı, eyni zamanda siyasi, diplomatik, iqtisadi, ideoloji mübarizə, informasiya müharibəsi və digər mübarizə növlərindən istifadə edilir.

Müasir müharibədə silahlı mübarizə yeni siyasi və strateji xüsusiyyətlərə malikdir. Belə ki, o, quruda, dənizdə, havada və kosmosda qarşılıqlı fəaliyyətdə olan əməliyyatların (döyüş fəaliyyətlərinin) eyni zamanda aparılması, strateji təşəbbüsün ələ keçirilməsi və saxlanması, şəraitin və hərbi fəaliyyətlərin aparılması üsullarının kəskin dəyişilməsi, hava-yerüstü və yüksək manevr xarakteri daşıyır.

Silahlı mübarizənin məzmununun dəyişilməsinə təsir edən əsas tendensiyalardan aşağıdakıları göstərmək olar:

– hərbi fəaliyyətlərin mərkəzinin hava-kosmik və informasiya sahəsinə yerdəyişməsi, müharibənin gedişi və nəticəsinin bu fəaliyyətlərdən asılılığının artırılması;

– yüksək dəqiqlikli silahların geniş tətbiqi;

– eyni vaxtda atəşlə zərərvurma dərinliyinin artması və qoşunların (qüvvələrin) döyüş fəaliyyətləri ilə onların əməliyyat-strateji (əməliyyat) düzülüşünün bütün dərinliyini əhatə etməsi;

– müharibənin başlanğıc dövründə əməliyyatların əhəmiyyətinin yüksəldilməsi;

– hərbi fəaliyyətlərin məkan genişliyinin və manevrin qüvvə və vasitələrlə inkişaf etdirilməsi.

Rusiya Federasiyasının hazırkı Hərbi Doktrinası müharibələri iki ən vacib meyara görə təsnif etməyi təklif edir: istifadə olunan döyüş vasitələrinə görə (adi silahlardan və kütləvi qırğın silahlarından istifadə etməklə); istifadə olunan hərbi zorakılığın miqyasına görə (yerli, regional, irimiqyaslı) [4].

### 3.1.Silahlı münaqişə

Dövlət müharibə vəziyyətinə keçmədikdə, ölkədə və ya onun ərazisinin bir hissəsində hərbi vəziyyət rejimi elan edilmədikdə, silahlı mübarizə isə əməliyyat istiqaməti çərçivəsindən çıxmadıqda, hərbi gücün məhdud tətbiqi ilə iqtisadi, siyasi, milli-etnik, dini və digər ziddiyyətlərin həll edilməsi üzrə dövlətlər və ya ayrı-ayrı dövlətlər daxilindəki sosial qruplar arasında silahlı toqquşmadır [2, s.119-120].

Silahlı münaqişədə tərəflər, bir qayda olaraq, xüsusi hərbi-siyasi məqsədlər güdür. Silahlı münaqişə məhdud miqyaslı silahlı aksiyaların və silahlı toqquşmaların böyüməsi nəticəsində yarana bilər. Silahlı münaqişə gedişində yaranan ziddiyyətlər silahlı mübarizə vasitələrindən istifadə edilməklə aradan qaldırılır.

Silahlı münaqişə beynəlxalq (iki və daha artıq dövlətin iştirakı) və ya daxili xarakterli (bir dövlətin ərazisi hüdudlarında silahlı qarşıdurmanın aparılması ilə) ola bilər.

Silahlı münaqişələr, bir qayda olaraq, qısamüddətli xarakter daşıyır, lakin maddi və hərbi dəstəyin, o cümlədən digər dövlətlərin qüvvə və vasitələrinin cəlb olunması hesabına uzunmüddətli ola bilər. Silahlı münaqişədə hərbi fəaliyyətlər tərəflərdən birinin hərbi-siyasi məqsədlərinə nail olması ilə başa çata bilər.

Təsnifat əsasında hərbi münaqişələr (müharibə və silahli münaqişələr) bir sıra meyarlara: münaqişənin məqsədinə, miqyasına və cəlb olunmuş qüvvə və vasitələrinə, aparılması metodlarına, hərbi əməliyyatların teatrına, əxlaq meyarına, münaqişələrin spektrinə və s.-nə görə ayırd edilir [5]:

**3.1.1.Qarşıya qoyulmuş və ya güdülən məqsədə görə:**

Soyğunçu müharibələr (işğal edilənlərin hesabına zənginləşmək); müstəmləkə müharibəsi (oyuncaq dövlətin yaradılması və onun hesabına zənginləşmək), habelə ticarət, milli azadlıq, patriotik və inqilabi müharibələr;.

**3.1.2.Hərbi əməliyyatların miqyası və cəlb edilmiş qüvvə və vasitələrin həcminə görə:**

İki və ya daha artıq dövlət arasında lokal müharibə, hərbi əməliyyatlarda iştirak edən dövlətlərin siyasi məqsədlərinə görə məhdud müharibə və irimiqyaslı müharibə.

Bu təsnifatda mübahisəli məqamlardan biri də bəzi tədqiqatlarda məhdud müharibə əvəzinə regional müharibə terminindən istifadə edilir.

**3.2.Lokal müharibə**

İki və daha artıq dövlət arasında, məhdud hərbi-siyasi məqsədlər güdən, döyüş fəaliyyətləri qarşıduran dövlətlərin sərhədləri çərçivəsində aparılan və əsasən bu ölkələrin maraqlarına (ərazi, iqtisadi, siyasi və s.) toxunan müharibədir [2, s.120].

Lokal müharibə tez ötüb keçən, həm də uzunmüddətli ola bilər. Silahlı mübarizələrdə ən yeni vasitələrin geniş tətbiqi lokal müharibədə hərbi-siyasi məqsədlərə qısa vaxt ərzində nail olmağa şərait yaradır. Uzunmüddətli müharibələr kiçik intensivliklə aparıla, qarşıduran tərəflərin tədricən haldan salınması ilə xarakterizə oluna bilər.

Bəzi hallarda lokal müharibə **regional və ya irimiqyaslı** müharibəyə çevrilə bilər [5].

**3.3.Regional müharibə**

*Müəyyən regionu (qitənin bir hissəsini) əhatə edən, başqa dövlətlərin dolayı iştirakı (kömək göstərilməsi) ilə region sərhədlərinin çərçivəsindəki bütün dövlətləri və ya bir çoxunu özünə cəlb edən, tərəflərin mühüm hərbi-siyasi məqsədlər güddüyü müharibədir*. Bu müharibədə nüvə silahına malik olan dövlətlər və ya onların

müttəfiqləri iştirak etdiyi halda, regional müharibə nüvə silahının tətbiqinə keçmə təhdidi ilə xarakterizə oluna bilər [2, s.120].

**Regional müharibənin xarakterik xüsusiyyətləri** aşağıdakılardır: tərəflərin hərbi-siyasi və strateji məqsədlərə nail olmasında qətiyyətlilik; quruda, dənizdə, havada və informasiya məkanında mübarizənin aparılması; koalisiya (regional) tərkibli qoşun (qüvvə) qruplaşmalarının tətbiqi; yüksəkdəqiqlikli silahların (xüsusilə aviasiya və dəniz qüvvələrinin bazasında yerləşən) və silahlı mübarizənin digər müasir vasitələrinin tətbiqi; radioelektron mübarizə vasitələrinin genişmiqyaslı istifadəsi; qarşı tərəflərin ərazilərinin bütün dərinliyi boyu qoşunlarına (qüvvələrinə), maddi-texniki təminat obyektlərinə, iqtisadiyyat və kommunikasiyalarına zərərvurma; ilkin mərhələdə müharibənin gedişinə və nəticələrinə təsir edə bilən, strateji tapşırıqları yerinə yetirən hava hücum əməliyyatlarının keçirilməsi.

### 3.4.İrimiqyaslı müharibə

*Dövlətlərin ittifaqları və ya dünyanın nəhəng dövlətləri arasında radikal hərbi-siyasi məqsədlərə nail olmaq üçün aparılan müharibədir. İrimiqyaslı müharibə, dünyanın müxtəlif regionlarından xeyli sayda dövlətlərin cəlb olunması ilə, silahlı münaqişənin, lokal və ya regional müharibənin eskalasiyası nəticəsində meydana gələ bilər [2, s.120-121].*

**İrimiqyaslı müharibənin xarakterik xüsusiyyətlərinə** aşağıdakılar aiddir:

– müharibə aparan dövlətlərin ərazisi, su hövzələri və hava məkanında, son dərəcə gərgin və yüksək dinamikli hərbi fəaliyyətlərdə bütün zərərvurma vasitələrini tətbiq etməklə silahlı mübarizənin aparılması;

– koalisiya tərkibli iri qoşun (qüvvə) qruplaşmalarının qarşıdurması;

– hərbi-iqtisadi potensialın və infrastrukturun geniş miqyasda dağıdılması;

– əhalinin və silahlı qüvvələrin şəxsi heyətinin əhəmiyyətli dərəcədə itkiləri.

İrimiqyaslı (regional) müharibə hərbi təhdidin tədricən genişlənməsindən sonra və ya beynəlxalq gərginliyin kəskinləşməsi şəraitində başlaya bilər.

**Hərbi əməliyyatların aparılması metodlarına görə:** hücum, müdafiə, nizamlı və partizan (gerilya) müharibələri.

Bu təsnifat növünə görə ABŞ alimlərinin qənaətlərində fərqlilik özünü büruzə verir. Belə ki, amerikalı hərbi ekspertlər kampaniya, genişmiqyaslı əməliyyat, əməliyyat, döyüş, hərbi əməliyyatlar, zərbə, basqın və döyüşü öz Silahlı Qüvvələrindən istifadə formaları kimi qələmə verir. Döyüş əməliyyatlarının bütün səviyyələri üçün ümumi forma manevr hesab edilir.

Hərbi fəaliyyətlərin əsas növlərinə birgə, müstəqil və xüsusi əməliyyatlar şəklində həyata keçirilən hücum, müdafiə və çəkindirmə hərəkətləri daxildir. Müasir müharibələrin aparılması metodlarındakı inqilabi dəyişikliyi nəzərə almaqla bu tipologiyaya birbaşa və təmassız (distant) müharibələri də əlavə etmək olar.

**Hərbi əməliyyatların ərazi-məkan (teatrına) xarakteristikasına görə:** quru, dəniz, hava, sahil, qala və səhra müharibələri fərqləndirilir və zaman-zaman ona dağlıq, şəhər və sıx, çətin keçilə bilən meşələrdə, informasiya və kibermәkanda müharibələr daxil edilir.

Amerikalı ekspertlər hərbi əməliyyatlar məkanını müharibə teatrı kimi qələmə verməklə onu quru, dəniz, hava, kosmos və kibermәkan (informasiya mühiti) kimi domenlərə təsnif edirlər.

Təsnifatın bu növünə “soyuq müharibə” dövründə Qərb politologiyasında qəbul edilmiş **“münaqişələrin spektri”** (daha çox ərazi-miqyas xarakteristikası) adlı sistemi də daxil etmək mümkündür. Həmin sistemə görə hərbi zorkalıq yüksək, orta və aşağı intensivli müharibələrə təsnif edilir [6, 171-182].

**“Yüksək intensivli” müharibələrə** böyük dövlətlər və onların koalisiyaları arasında bütün müharibələr aid edilir. Bu sistem yaranan zaman ona ABŞ və SSRİ, NATO və Varşava Müavilәsi Təşkilatı (VMT) arasında mümkün müharibə aid edilmişdir. 2022-ci ilin fevralında başlanmış Rusiya-Ukrayna müharibəsinin tədricən Rusiya-Qərb (NATO) hərbi qarşıdurmasına doğru transformasiyası onu bu bölgüyə aid edir. Bu tipə daxil edilən müharibəni **“dünya müharibəsi”** və **nüvə müharibəsi** bölgüsünə daxil etmək olar. Məhz Rusiya-Ukrayna müharibəsində nüvə silahının tətbiq mümkünlüyü haqqında verilmiş rəsmi və ekspert bəyanatları həmin qarşıdurmanı yüksək intensivli müharibə kimi qəbul olunmasına zəmin yaradır.

**“Orta intensivli” müharibələr** regional və lokal xarakterli dövlətlərarası silahlı toqquşmalara aid edilir. Sonrakı araşdırmalarda **“orta intensivli” münaqişələr** konsepsiyası ciddi tənqidə məruz qalıb. Onun əvəzinə 1993-cü ildə **“iri regional münaqişə”** konsepsiyası qəbul edildi. Bu konsepsiyaya əsasən, iri regional münaqişələrə öz tərkibində müəyyən sayda şəxsi heyətə və müəyyən texniki təchizat malik beynəlxalq hüquq subyekti olan dövlətlərin xarici hərbi əməliyyatları aid edilir.

**“Aşağı intensivli” münaqişələrə** isə bütün daxili tipli silahlı aksiyalar, yəni, partizan və antipartizan əməliyyatları, antiterror əməliyyatları və sülhməramlı əməliyyatlar daxildir. Bu bölgüyə silah və texnikanın qeyri-intensiv tətbiqi ilə aparılan silahlı münaqişələr və aksiyalar daxildir. Bura misal qismində keçmiş postsovet məkanında baş vermiş və hətta bu günədək öz mövcudluğunu saxlayan münaqişələri aid etmək olar.

Ümumilikdə, bu kateqoriya müasir reallıqların təsiri altında ciddi transformasiyaya məruz qalmaqdadır. Müasir müharibələrə hazırlıq, onun başlanma və idarə olunma müddətinin qısaldılması aşağı intensivli müharibələrin perspektivlərini heçə endirməkdədir. Digər tərəfdən, hazırda müasir müharibələrə adaptasiya olunan Silahlı Qüvvələrin (qoşunların daimi döyüş hazırlığında saxlanılması, müasir silah və texnikanın mövcudluğu, şəxsi

heyətin və döyüş vasitələrinin mobil şəkildə köçürülməsi imkanları) yaradılması müharibələrdə intensivliyin səviyyəsini yüksəltməkdədir. Bu tendensiyaya yüksək dəqiqlikli silahların, süni intellektin və avtonom, ağıllı silah platformalarının təsiri danılmazdır. Misal qismində bu il baş vermiş 12 günlük İsrail – İran və 3 günlük Hindistan- Pakistan müharibəsini göstərmək olar.

Bu tendensiyanın tədricən daxili münaqişələrə də sirayət etməsi diqqətdən yayınmır. Azərbaycanın Dağlıq Qarabağ iqtisadi rayonunda 2023-cü ilin 19-20 sentyabr tarixlərində aparılmış bir günlük antiterror tədbirləri belə düşünməyə əsas verir.

**4.Müharibə nəsilləri**

Hərbi münaqişələrin təsnifat sisteminə daxil olan kateqoriyalardan də biri müharibə nəsilləri hesab edir. Məlumdur ki, müharibələrin və hərbi münaqişələrin tarixinin təhlili göstərir ki, nüvə silahından əvvəlki dövrdə Yer kürəsində müharibə və sülhün növbələşməsi təbii və hətta ilkin vəziyyət olub. Müharibələr heç vaxt dayanmayıb, inkişafını davam etdirib [7, s.85]: qədim zamanlardan bu günə qədər ən azı **beş nəsil müharibələr** və hərbi münaqişələr dəyişikliyə məruz qalıb. Belə nəsillərin dəyişməsinin əsas mərhələləri, əsasən, bəşər cəmiyyətinin inkişafında tarixi əhəmiyyətli keyfiyyət sıçrayışları ilə üst-üstə düşür ki, bu da prinsipcə yeni məhvetmə vasitələrinin meydana gəlməsinə səbəb olub, müharibə aparmağın yeni forma və üsullarının yaranmasına zəmin yaradıb. Bu təsnifata daxil olan müharibə nəsilləri aşağıdakılar hesab edilir:

**4.1.Birinci nəsil müharibə** dövlətin Silahlı Qüvvələrindən və cinah, xətt və sütun taktikasından istifadə etməklə, kütləvi insan qüvvəsi ilə aparılmış qədim və post-klassik döyüşlərə aid edilir. Bu nəsilə aid müharibələrin əsas domenləri torpaq və dənizdə kinetik (hərbi, silahlı) qüvvələr vasitəsilə aparılan hərbi əməliyyatlar hesab edilir. **“Cinah, xətt və kolon müharibəsi”** adlanan bu qarşıdurmalar yaxın, üzbəüz döyüşlərdə düşmən qüvvələrinin məhv edilməsi ilə xarakterizə olunur.

**4.2.İkinci nəsil müharibə** yivli tüfənglər və arxadan doldurulan silahların ixtirasından sonra istifadə edilən, pulemyot və dolayı atəşin inkişafı və tətbiqi ilə davam etdirilən ilk müasir taktikalarla əlaqələndirilir. Bu təsnifatda atəş gücü ilə düşmənin silahlı qüvvələrinin (kinetik qüvvə) dolayı məhv edilməsi **“səngər müharibəsi”** kimi xarakterizə edilir, torpaq və dəniz üzərində aparılır. İkinci nəsil müharibə termini 1989-cu ildə ABŞ Ordusu tərəfindən elmə gətirilmişdir.

**4.3.Üçüncü nəsil müharibə** düşmənin müdafiə xətlərini yarmaq və onun qüvvələrini arxa cəbhədə məhv etmək üçün son müasir texnologiyadan qaynaqlanan taktikalardan istifadəyə yönəlmişdir. Əslində düşmənin hərbi komanda, nəzarət və logistikasının məhvinə yönəlmiş bu nəsil müharibə taktiki səviyyədə birxətli müharibənin sonu demək idi. Bu müharibədə qarşıduran

bölmələr üzbəüz savaş yolu ilə deyil, biri digərini müxtəlif üsullarla (düşmənin arxasından peyda olmaqla) üstələməyə çalışırdı. **“Manevr müharibəsi”** adlanan bu nəsil qarşıdurmalar torpaq, dəniz və havada aparılmışdır.

**4.4.Dördüncü nəsilə xas müharibələrin** mərkəzləşdirilməmiş aparılma formalarına malik olması, dövlətlərin öz Silahlı Qüvvələri üzərində inhisarçılığı itirməsi səbəbindən müharibə və siyasət, döyüşçülər və mülki şəxslər arasındakı xətlərin pozulması ilə xarakterizə olunur. **“Nizamsız/Qiyamçı müharibə”** adlandırılan bu nəsil qarşıdurmalar qeyri-dövlət aktorlarının iştirakı ilə terrorçuluq, qiyamçı və partizan taktikasını uzlaşdıran asimmetrik müharibəni, media manipulyasiyası vasitəsilə psixoloji müharibəni, mövcud siyasi, iqtisadi, sosial və hərbi təzyiqlərdən yararlanmağı və bütün şəbəkələrdən olan iştirakçıları əhatə edən aşağı intensivli bir münaqişəni özündə əks etdirir.

**4.5.**Qərb hərb elmində **beşinci nəsil müharibələr** anlayışına da rast gəlinir. **“Məhdudiyyətsiz müharibələr”** kimi xarakterizə edilən həmin müharibələrlə bağlı hələ də ümumi razılaşdırılmış yanaşma yoxdur. Konvensional münaqişələrdən fərqli olaraq, dövləti və ya beynəlxalq sülh və təhlükəsizliyi sarsıtmaq məqsədi güdməyən beşinci nəsil müharibə şəbəkə yönümlüdür və icmalar arasında qarşıdurmalara səbəb olur. Həmçinin millətçilərə dövlətə loyallıq göstərməkdən imtina etmək imkanı verir. Bu “hibrid müharibə” forması partizan müharibəsi, qiyam və ya terror hücumları kimi ənənəvi və nizamsız taktikaların birləşməsidir [8, s.20-21].

Bu təsnifatı da yetərli hesab etmək olmaz. Birincisi, hazırda Qərb tədqiqatçıları altıncı nəsil müharibələrdən – konsietal müharibələrdən (latınca conscientia - şüur) danışırlar. İkincisi, rusiyalı tədqiqatçılar bu günədək altı müharibə nəslindən bəhs edirlər. Onlar Qərb elmindən fərqli olaraq, nüvə müharibəsini beşinci nəsil kimi təsnif edirlər.

**5.Müharibənin növləri**

İki növ müharibəni ayırd etmək olar: **klassik və qeyri-klassik.** Klassik müharibədə məhvetmə obyekti insan orqanizmi, cəmiyyət səviyyəsində isə onun maddi-texniki bazası, maddi ehtiyatlarıdır. Qeyri-klassik müharibə, məhv edilmə obyektinin fərdin və cəmiyyətin bütün forma və strukturlarında şüurunun olduğu, qeyri-fiziki zorakılıqdan və müvafiq silah növlərindən istifadə etməklə cəmiyyət həyatının bütün sahələrində qeyri-qanuni, dolayı yolla aparılan müharibə növüdür. Qeyri-klassik müharibə növlərinə informasiya-psixoloji, konsietal, qiyam-müharibə, iqtisadi və s.

Bu bölgünü “soyuq müharibə”dən sonra hərbi münaqişələri kinetik və qeyri-kinetik müharibələr adlı iki böyük təsnifat qrupunu ilə əvəzləmək olar.

Daha bir təsnifat növü nüvə dövrünə qədərki və nüvə dövrünün müharibələri hesab edilir. Qərb konfliktologiya elmində üç müharibə nəsli (**“Cinah, xətt və kolon müharibəsi”**, **“Səngər müharibəsi”**, **“Manevr müharibəsi”**) nüvə

dövrünə qədərki müharibələrə uyğun gəlir. Lakin **“manevr müharibəsi”**nin həmin təsnifatdan kənara çıxması barədə mübahisə etmək mümkündür. Belə ki, “manevr müharibəsinin” soyuq müharibənin bitməsinədək hakim vəziyyətdə olması bu nəsil müharibələrin nüvə dövründə mövcud olmasını deməyə əsas verir.

Dördüncü və beşinci, hətta hazırda haqqında danışılan altıncı nəsil müharibələr nüvə dövrünün müharibələrinə aid edilir. Lakin etiraf etmək lazımdır ki, nüvə silahının ixtirasından sonra müharibə nəsilləri sürətlə çoxalmağa başlayıb. Bu da heç şübhəsiz bəşəriyyət üçün fəlakətli ola bilən nüvə müharibəsinin lokal və qeyri-konvensional müharibələrlə əvəz olunmasına zəmin yaradıb.

Hərbi münaqişələrin ən qədim təsnifat meyarı əxlaq prinsiplərinə görə müharibələrə yanaşma hesab edilir. Bu meyar hələ quldarlıq dövründə müxtəlif prizmalardan istifadə edilmişdir. Həmin meyarlara müharibə qanunları, hərbi əməliyyatların aparılması qaydaları, müharibə qurbanlarının müdafiəsi və s. məsələlər aid edilmişdir. İlkin olaraq Qədim Yunanıstanda müharibələr qanuni və qeyri-qanuni olaraq fərqləndirilmişdir. Romalıların apardıqları bütün müharibələr ədalətli hesab olunurdu (burada ədalət imperiya maraqları baxımından subyektiv olaraq təqdim edilmişdir). Bununla belə, ədalətli müharibələrə başlanması haqqında qabaqcadan xəbər verilən müharibələrin aid edilməsi o dövr üçün mütərəqqi bir hal idi.

Romalı filosoflar Siseron və Avqustin müharibələri **“ədalətli”** və **“ədalətsiz”** kimi təsnifləndirmişdir. Müharibə **“ədalətli”** yalnız o halda ola bilərdi ki, onun başlanması qanuni səbəblərlə, məsələn, düşmən hücumunu dəf etmək zərurətilə bağlı olsun.

İlahiyyatçı Foma Akvinski (1225-1275) də müharibələri ədalətli və ədalətsiz bölgüyə ayırırdı. Onun fikrincə, o müharibə ədalətli hesab edilə bilər ki, o müqavilə öhdəliklərinin icrasına məcbur etmək zərurəti ilə bağlı olsun.

Vestfal sülhündən (1648) sonra beynəlxalq hüququn inkişafında ekzistensional dəyərlərin sürətli inkişafı müharibələrə münasibətdə humanist baxışların inkişafına təkan vermiş oldu. Məhz həmin təkan ədalətli və ədalətsiz müharibələr haqqında hələ quldarlıq dövründən başlanmış müzakirələrin nəticələrini tədricən leqallaşdırmağa başladı və bu proses BMT-nin yaranmasıyla öz hüquqi təsbitini onun Nizamnaməsində tapmış oldu.

**6.Təsnifat prinsipi qismində götürülmüş əxlaq meyarına görə hərbi münaqişələr**

**Beləliklə, təsnifat prinsipi qismində götürülmüş əxlaq meyarına görə** hərbi münaqişələr aşağıdakılara bölünür:

**6.1.Ədalətli,** yəni BMT Nizamnaməsinə, beynəlxalq hüququn fundamental prinsiplərinə və normalarına zidd olmayan, hücuma məruz qalan tərəfin özünümüdafiə məqsədi ilə hərbi gücə əl atması;

**6.2.Ədalətsiz,** yəni BMT Nizamnaməsinə, beynəlxalq hüququn əsas prinsip və normalarına zidd olaraq, təcavüz anlayışını müəyyən edən meyarlara cavab verən hücumu həyata keçirmiş tərəfin hərbi fəaliyyətləri.

Müasir Rusiya “soyuq müharibə”dən sonra formalaşmağa başlamış hərbi konfliktologiya elmi çərçivəsində silahlı münaqişələrin təsnifatı ilə bağlı həyata keçirilmiş təsnifat **maksist-leninçi yanaşması** ilə müasir Qərb konsepsiyalarının sintezi əsasında qurulib. Həmin yanaşmaya əsasən, bütün hərbi münaqişələrin təsnifatı üç əsas bölgü üzrə müəyyənləşdirilib:

1.sosial-siyasi;
2.hüquqi;
3.strateji [9, s.34].

Birinci təsnifat qrupu aşağıdakı variantlar üzrə həyata keçirilib:

a)**Milli maraqlara uyğunluq dərəcəsinə görə** - milli maraqlara uyğun olan və onlara uyğun olmayan;

b)**Ziddiyyət tipinə görə** - siyasi, itisadi, ərazi, milli-etnik və dini;

c)**Kombatantların (aktorların) sosial-siyasi tərkibinə görə** - dövlətlərarası, milli-azadlıq və vətəndaş;

d)**Siyasi məqsədlərin xarakterinə görə** - işğalçılıq məqsədi güdən, beynəlxalq sülhün dəstəklənməsi və suverenliyin və ərazi bütövlüyünün müdafiəsi məqsədilə.

İkinci təsnifata əsasən hərbi münaqişələr iki növ müharibə və silahlı münaqişələrə bölünür: beynəlxalq hüquq normalarına zidd və beynəlxalq hüquq normalarına uyğun aparılan.

Üçüncü təsnifata daxil olan hərbi münaqişələr müharibə, silahlı münaqişələr və silahlı aksiyalara görə fərqləndirilib:

a)**Miqyasına görə** - hərbi aksiyalar, lokal, beynəlxalq, uzunsürən, koalisiya və ikitərəfli müharibələr;

b)**Hərbi əməliyyatların aparılması üsuluna görə** - hücum, müdafiə, manevr etmə və mövqe;

c)**Tətbiq edilən vasitələrə görə** - nüvə və adi qırğın silah vasitələri ilə;

d)**Gərginlik dərəcəsinə görə** - yüksək, orta və aşağı intensivli.

**7.Nəticə**

Hərbi münaqişələrin təsnifatı olduqca mürəkkəb və vacib məsələdir. Mürəkkəblik ondan ibarətdir ki, əksər təsniflər nisbi xarakter daşıyır, terminlər arasında müəyyən edilmiş sərhədlər dəqiq deyil. Bəzi bölgülərdə uyğunsuzluqlar da mövcudur. Buna misal qismində müharibə nəsillərinə görə edilmiş təsniflərdə Qərb və rus konfliktologiya elmində mövcud olan fərqli baxışları göstərmək olar.

İkinci çətinlik ondan ibarətdir ki, münaqişələrin daha dərin tipologiyasını aparmaq üçün onun sistemləşdirilməsi və taksonomiyası problemi demək olar

ki işlənməyib. Bu problemlər öz elmi həllini tapmayanadək konfliktologiya elmində təsnifat sisteminin mükəmməlliyindən danışmaq mümkün olmayacaq.

Üçüncü çətinlik isə yüksək texnologiyaların sürətli inkişafı müharibələrin aparılması qaydalarına və vasitələrinə göstərdiyi təsirlərdir. Bu təsirlər klassik təsnifat sistemini radikal dəyişikliyə məruz qoyub. Yeni təsnifat sistemi isə dayanıqlı hesab edilmir.

## ƏDƏBİYYAT


1. (2013). *Геополитика. Информационно-аналитическое издание.* Выпуск XXI. 162 с.
2. Смульский, С. В., & др. (2010). *Военная конфликтология* [Учебник]. Под ред. С. В. Смульского. Российская академия государственной службы при Президенте Российской Федерации. Москва: Издательство РАГС, 206 с.
3. Рогозин, Д. (Ред.). (2011). *Война и мир в терминах и определениях: Военно-политический словарь*. Москва: Вече, 640 с.
4. Военный конфликт. (2022, 15 сентября). *Большая Российская Энциклопедия.* https://bigenc.ru/c/voennyi-konflikt-daac15
5. Юсупов, А. К., & Лубяной, В. И. (2019). Сущность и классификация войн и военных конфликтов: содержание и анализ проблемы в современных условиях. *XI Международная студенческая научная конференция. Студенческий научный форум*. Москва. https://scienceforum.ru/2019/article/2018014030
6. Глухова, А. В. (2000). *Политические конфликты: основания, типология, динамика.* Москва: Эдиториал УРСС, с.171-182, 277 с. ISBN: 9785836000998
7. Макаренко, С. И., & Иванов, М. С. (2018). *Сетецентрическая война – принципы, технологии, примеры и перспективы* [Монография]. Санкт-Петербург: Наукоемкие технологии, 898 с.
8. Najadov, Z., & Gawliczek, P. J. (2023). The signs of the second of the Second Karabakh War typical of the 5th generation war. *Civitas Et Lex, 38*(2), 19–30. https://doi.org/10.31648/cetl.8652
9. Клименко, А. Ф. (1992). К теории военных конфликтов. *Военная мысль*, (10), с.34.


## REFERENCES


1. (2013). *Geopolitics. Information-analytical publication.* Issue XXI. 162 p. (in Russian)
2. Smulsky, S. V., et al. (2010). *Military conflictology*. In S. V. Smulsky (Ed.). Russian Academy of Public Administration under the President of the Russian Federation. Moscow: RAGS Publishing, 206 p. (in Russian)

**3.** Rogozin, D. (Ed.). (2011). *War and peace in terms and definitions: Military-political dictionary*. Moscow: Veche, 640 p. (in Russian)
**4.** Voennyi konflikt [Military conflict]. (2022, September 15). *Great Russian Encyclopedia*. https://bigenc.ru/c/voennyi-konflikt-daac15 (in Russian)
**5.** Yusupov, A. K., & Lubyanoi, V. I. (2019). The essence and classification of wars and military conflicts: Content and analysis of the problem in modern conditions. *XI International Student Scientific Conference. Student Scientific Forum*. Moscow. https://scienceforum.ru/2019/article/2018014030 (in Russian)
**6.** Glukhova, A. V. (2000). *Political conflicts: Foundations, typology, dynamics*. Moscow: Editorial URSS, 171–182, 277 p. ISBN: 9785836000998. (in Russian)
**7.** Makarenko, S. I., & Ivanov, M. S. (2018). *Network-centric warfare – Principles, technologies, examples and prospects*. St. Petersburg: Science-intensive Technologies, 898 p. (in Russian)
**8.** Najadov, Z., & Gawliczek, P. J. (2023). The signs of the Second Karabakh War typical of the 5th generation war. *Civitas et Lex, 38*(2), 19–30. https://doi.org/10.31648/cetl.8652 (in English)
**9.** Klimenko, A. F. (1992). On the theory of military conflicts. *Military Thought*, (10), 34. (in Russian)